# Azərbaycan - İtaliya münasibətləri

**Qısa tarixi məlumat:**

İtaliya Azərbaycanın müstəqilliyini 1 yanvar 1992-ci ildə tanımış, 8 may 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələr yaradılmışdır. 1997-ci ilin mart ayında İtaliyanın Azərbaycanda, 2003-cü ilin dekabr ayında isə Azərbaycanın İtaliyada səfirliyi təsis edilmişdir. Azərbaycan Respublikasının İtaliyadakı hazırkı səfiri Vaqif Sadıqov etimadnaməsini İtaliya Prezidenti C.Napolitanoya 8 fevral 2011-ci il tarixində təqdim etmişdir. İtaliyanın ölkəmizdəki səfiri M.Baldi etimadnaməsini Azərbaycan Respublikasının Prezidentinə 23 oktyabr 2009-cu ildə təqdim etmişdir.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər:**

**Dövlət başçıları:**

| | |
|---|---|
| 1997-ci il 24-27 sentyabr | - Prezident H.Əliyevin rəsmi səfəri |
| 2005-ci il 24-26 fevral | - Prezident İ.Əliyevin rəsmi səfəri |
| 2008-ci il 25-26 noyabr | - Prezident İ.Əliyevin rəsmi səfəri |
| 2011-ci il 2 iyun | - İtaliyanın birləşdirilməsinin 150 illiyi münasibətilə Romada təşkil edilmiş rəsmi tədbirdə iştirak etmək məqsədilə Prezident İ.Əliyevin səfəri |

**Parlament sədrləri:**

| | |
|---|---|
| 2010-cu il 3-5 may | - Milli Məclisin Sədri O.Əsədovun rəsmi səfəri |

**Nazirlər:**

| | |
|---|---|
| 2007-ci il 28 may-1 iyun | - Ədliyyə Naziri F.Məmmədovun səfəri |
| 2007-ci il 11-22 dekabr | - İqtisadi İnkişaf Naziri P.L.Bersaninin səfəri |
| 2009-cu il 7 oktyabr | - Xarici İşlər Naziri E.Məmmədyarovun səfəri |
| 2010-cu il 28-29 aprel | - Xarici İşlər Naziri E.Məmmədyarovun səfəri |
| 2010-cu il 10-14 noyabr | - Səhiyyə Naziri O.Şirəliyevin səfəri |
| 2011-ci il 25-26 may | - Fövqəladə Hallar Naziri Kəmaləddin Heydərovun səfəri |
| 2011-ci il 29 iyun-2 iyul | - Kənd Təsərrüfatı Naziri İsmət Abasovun |
| 2011-ci il 5 iyul | - Xarici İşlər Naziri E.Məmmədyarovun səfəri |
| 2011-ci il 6 iyul | - Sənaye və Energetika Naziri Natiq Əliyevin səfəri |
| 2012-ci il 13-14 fevral | - Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayevin |
| 2012-ci il 4-6 iyun | - Təhsil Naziri Misir Mərdanovun səfəri |
| 2012-ci il 15 noyabr | - Baş nazirin müavini Elçin Əfəndiyevin İtaliyaya səfəri |

## Parlamentlərarası əlaqələr:

AR Milli Məclisində Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimlidir. İtaliya Senatında yaradılmış İtaliya-Azərbaycan dostluq qrupunun rəhbəri isə xanım Rossana Boldidir.

## Müqavilə-hüquq bazası:

Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında 30 sənəd imzalanmışdır.

**Link:** www.azembassy.it

*Son yenilənmə tarixi: 25.02.2013*